# Biznes əməliyyatları hesabatı

## 2021-ci ilin 3-cü rübünün nəticələri

# Əsas göstəricilər (2021-ci ilin 3-cü rübünün sonu)

| | |
|---|---|
| **Hasilat** | |
| **AÇG** | |
| neft (min barel/gün) | 461 |
| neft (milyon ton) | 17 |
| **Şahdəniz** | |
| qaz (milyard kubmetr) | 16 |
| kondensat (milyon ton) | 3 |
| **Əməliyyat məsrəfləri** (milyon dollar) | |
| **AÇG** | 398 |
| **BTC** | 96 |
| **Şahdəniz** | 1570 |
| **CQBK** | 39 |
| **Əsaslı məsrəflər** (milyon dollar) | |
| **AÇG** | 1243 |
| **BTC** | 22 |
| **Şahdəniz** | 524 |
| **CQBK** | 8 |

# 2021-ci ilin mühüm hadisələri- AÇG əməliyyatları

- İlin ilk üç rübü ərzində AÇG-də **yeddi neft hasilat quyusu** tamamlanıb.
- 18 sentyabr 2021-ci il tarixində AÇG-dən ümumi neft hasilatı **4 milyard barelə çatdı**.



Çıraq platforması

# 2021-ci ilin mühüm hadisələri –Azəri Mərkəzi Şərqi (ACE) layihəsi

- Hazırda ACE layihəsinin icrası üzrə **işlər ən yüksək həddədir və ümumilikdə 60% tamamlanıb**. Bu işlərə 5500 nəfər insan cəlb olunub.
- Dənizdə Xankəndi gəmisinin sualtı kəsişmələri qoruma panellərini quraşdırması ilə **sualtı quraşdırma işlərinə başlanıb**.
- **Platformanın üst modullarının və qazma avadanlıqlarının istehsal-quraşdırma işləri** davam edib. Boru xətlərinin dikəldilməsi və hidrosınaq işləri, habelə kabellərin çəkilməsi irəliləyib, üst göyərtənin son panelinin və qazma buruğunun aşağı hissəsinin quraşdırılması başa çatıb.
- **Yaşayış modullarının** hamısı uğurla göyərtənin üzərinə quraşdırılıb.
- **Dayaq blokunun tikintisində** mərkəzi dayaq çərçivəsinin yana oturdulması başa çatıb, dayaq bloku qüllələrinin quraşdırılmasına başlanıb.



Bibiheybətdə yaşayış modullarının quraşdırılması işləri

# 2021-ci ilin mühüm hadisələri – Şahdəniz əməliyyatları

- Şahdənizdən ilk hasilat başlandığı vaxtdan ümumilikdə təqribən **151 milyard kubmetr qaz** və **35 milyon ton kondensat** əldə edilib.
- 4 iyun tarixində Şahdəniz **Hasilatın Pay Bölgüsü haqqında Sazişin imzalanmasının 25 illiyini** qeyd edib.
- 30 iyun tarixində Şahdəniz 2 çərçivəsində **dərinsulu Şərq-cənub cinahından hasilat başlanıb.**
- 2021-ci ilin iyul ayında ilk dəfə olaraq **Şahdəniz Bravo platformasından gündəlik hasilat Şahdəniz Alfa ilə eyni səviyyəyə çatıb.**


Şahdəniz Alfa platforması

# 2021-ci ilin mühüm hadisələri – Səngəçal terminalı

- 2021-ci ilin ilk üç rübündə Səngəçal terminalından təqribən **172 milyon barel neft** və **15,9 milyard kubmetr Şahdəniz qazı** ixrac olunub.
- Hazırda terminal gündəlik **1,2 milyon barel neft və kondensat** və **100 milyon kubmetr qaz** (o cümlədən 81 milyon kubmetr Şahdəniz qazı) ixrac etmə gücünə malikdir.


Səngəçal terminalı

# Geoloji kəşfiyyat üzrə mühüm hadisələr

- Şəfəq-Asiman dəniz blokunda **ilk kəşfiyyat quyusunun qazılması** 2021-ci ilin mart ayında Fasilə lay dəstində 7189 m dərinlikdə **tamamlanıb.**
- Dayazsulu Abşeron blokunun Şimal Xali sahəsində avqustun 16-da **ilk kəşfiyyat quyusunun qazılmasına başlanıb.** Qazma işləri təxminən 2300 metr dərinliyə çatıb.
- D230 dəniz blokunda **seysmik məlumatların interpretasiyası davam edir.**


Satti qazma qurğusu

# Yerli kadrlar

- Hazırda bp-də 2287 nəfər Azərbaycan vətəndaşı işləyir (müddətli müqavilə əsasında işləyənlər daxildir).
- Azərbaycanda ixtisaslı işçilərin 90%-i yerli kadrlardır.

**Azərbaycanda ixtisaslı daimi işçilər**








# 2021-ci ilin ilk 3 rübündə yerli ehtiyatlardan istifadə

| Yerli podratçılar/təchizatçılar (Azərbaycan, Gürcüstan, Türkiyə regionu) | Sayı | Xərclənib (milyon dollar) |
|---|---|---|
| • Kiçik və orta müəssisələr | 204 | 267,9 |
| • Dövlət şirkətləri | 23 | 32,3 |
| • Yerli tərəfdaşı olan birgə müəssisələr | 13 | 759,2 |
| • Xarici podratçıların ölkə daxilində məsrəfləri | 126 | 297,8 |
| **Ölkə daxilində cəmi xərclər[1]** | | **1357,2** |

**Ümumi üçüncü tərəf xərclərinin 62%-i**

1. **Bu məbləğ bp-nin yerli şirkətlərlə birbaşa xərclərini və regionda fəaliyyət göstərən xarici şirkətlərlə müqavilələr üzrə yerli işçi qüvvəsinə / xidmətlərə / materiallara çəkilmiş bilavasitə (subpodratçı) xərcləri göstərir.**



# 2021-ci ilin ilk 3 rübündə sosial təşəbbüslər

**Azərbaycanda sosial təşəbbüslər**
(ödənilmiş, milyon dollar)

| | |
|---|---|
| bp və bp-nin əməliyyatçısı olduğu layihələrdəki tərəfdaşları | 1,1 |
| bp100% | 0,9 |
| **Cəmi** | **2** |


Azərbaycanda kompüter elmləri və data analitikası potensialının gücləndirilməsi


Texnologiyalar üzrə yeni nəsil mütəxəssislərin yetişdirilməsi – “ABB Tech Academy”


İcmalar üçün ali təhsil imkanlarının yaradılması - “Gələcəyini Qur” layihəsi


Adaptiv liderlik bacarıqlarının və təcrübələrinin formalaşdırılması – «Adaptiv Strateji İdarəetmə Proqramı»


Ölkədə idmanın inkişafına dəstək